# Məsuliyyətlə yanaşılır

**Saatlı Rayon Mədəniyyət Şöbəsinin tabeliyində olan müəssisələr imkan daxilində ayrılmış vəsait hesabına ən zəruri mallarla təchiz edilmişdir. Rayon mərkəzində olan bütün müəssisələr il ərzində cari və əsaslı təmir edilmişdir. Ümumiyyətlə, Saatlı Rayon Mədəniyyət Şöbəsinin nəzdində qəza vəziyyətində olan müəssisə yoxdur.**

2004-cü ildə mədəniyyət şöbəsinin bilavasitə rəhbərliyi altında bir çox yaddaqalan mədəni-kütləvi tədbirlər həyata keçirilmişdir. İl ərzində 20 Yanvar faciəsinin ildönümü, Gənclər günü, Xocalı faciəsinin ildönümü, Ramazan bayramı, Qurtuluş günü, Milli Dirçəliş günü, Novruz bayramı, Ahıllar günü, Bilik günü, Beynəlxalq Qadınlar günü yüksək səviyyədə qeyd edilmişdir.

Görkəmli şair və yazıçıların yubileyləri də bu rayonda təntənəli surətdə keçirilir. Yazıçı Zeynal Xəlilin anadan olmasının 90, Teymur Elçinin 80, Cəfər Cabbarlının 105, İsi Məlikzadənin 70, Məmməd Cəfərin 95, Hikmət Ziyanın 75, Qılman İlkinin 90, Vaqif Səmədoğlunun 65, Hüseyn Arifin 80, İsmayıl Şıxlının 85, Hidayət Orucun 60, Məhəmməd Füzulinin 510, Əfqanın 75, İlyas Tapdığın 70, İlyas Əfəndiyevin 90, Nəbi Xəzrinin 80, Famil Mehdinin 70 illiyinə dair tədbirlərin keçirilməsi ziyalılar və oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Tədbirlər keçirilərkən şair və yazıçıların yubileyləri zamanı onların əsərlərinin sərgisi nümayiş etdirilmiş, tövsiyə xarakterli məktublar hazırlanıb müxtəlif oxucu klublarına göndərilmişdir.

Saatlı Rayon Mədəniyyət Şöbəsi bədii özfəaliyyət kollektivlərini diqqət mərkəzində saxlayır, yeni-yeni gənc istedadın üzə çıxmasına və ictimaiyyət arasında tanınmasına qayğı göstərir. Bu məqsədlə əhali arasında onların çıxışlarını təşkil edir.

Saatlı rayonunda müxtəlif xalqların nümayəndələri - Mesxeti türkləri, ruslar, ləzgilər, tatarlar və b. yaşayırlar. Bu xalqlara öz milli musiqilərini, rəqslərini təbliğ etmək üçün gözəl şərait yaradılmışdır. Onların arasında bədii özfəaliyyəti inkişaf etdirmək mədəniyyət şöbəsinin əsas vəzifələrindəndir. Şöbənin gərgin əməyinin nəticəsidir ki, Nəsimikənd, Fətəlikənd kəndlərində Mesxeti türklərdən ibarət "Adıgün" türk folklor xalq kollektivi səmərəli fəaliyyət göstərir. Bu kollektiv respublikanın əksər rayonlarında ifaçılıq məharəti göstərmişdir. Uğurlu çıxışlarına görə kollektiv MDB ölkələrindən dəfələrlə dəvətlər almış, bir neçə xarici ölkədə ezamiyyətdə olmuş, folklorçuluq nümunələrini təbliğ etmiş, fəxri fərman və medallara layiq görülmüşdür.





***Saatlıya yolu düşən insanların diqqətini ən çox cəlb edən onun adamlarının zəhmətkeş və mehriban olmasıdır. Bəlkə də, iqliminin başqa rayonlara nisbətən isti olmağındandır, bu adamların belə mehriban və istiqanlı olmaları. Bu insanlarla ünsiyyətdə olanda onların yaşadıqları torpağa, elə-obaya necə bağlı olduqlarının şahidi olursan.***

***Saatlı Rayon Mədəniyyət Şöbəsində də öz işinə canyandıran insanlar çalışırlar. Şöbə özündə bir rayon mədəniyyət sarayı, bir tarix-diyarşünaslıq muzeyi, bir rəsm qalereyası, bir mərkəzi rayon kitabxanası və 58 kənd kitabxana filialı, bir uşaq kitabxanası, bir uşaq musiqi məktəbi, 13 kənd mədəniyyət evi, 9 kənd klubu, 4 şəhər klubunu birləşdirir. Adları qeyd olunan bu müəssisələrdə işləyənlərin ümumi sayı 316 nəfərdir. Şöbəyə A.İslamov rəhbərlik edir.***

Saatlı rayonunda baxımsız və küçə uşaqlarının problemlərinin həlli ilə bağlı bir sıra tədbirlər həyata keçirilmişdir.

Saatlı Rayon Mədəniyyət Şöbəsində yeniyetmə və gənclərin tərbiyəsinə xüsusi fikir verilir. Burada istedadlı və yaradıcı gənclərin sosial, iqtisadi problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərinin inkişaf etdirilməsinə kömək edən dövlət proqramının həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər planı tutulmuşdur. Tədbirlər planına əsasən istedadlı yeniyetmələrin qabiliyyət və yaradıcılığını inkişaf etdirmək üçün baxış müsabiqələr, festivallar, yarışlar keçirilir. Qabiliyyətli gənclər həm maddi, həm də mənəvi cəhətdən həvəsləndirilir.

Rayonda gənc ailələrə qayğı ilə yanaşılır, yeni ailə quranlarla mütəmadi iş aparılır. Mədəni-maarif ocaqlarında tədbirlər keçirilərkən ilk növbədə onlar dəvət olunurlar. Beynəlxalq "Ailə ili" ilə bağlı tədbirlərin keçirilməsini gənclər həmişə razılıqla qarşılayırlar. Bununla bağlı, mərkəzləşdirilmiş kitabxana sistemində oxucular konfransı keçirilmiş, fotomontaj yaradılmışdır. Ana dilimiz olan Azərbaycan dilinin saflığının qorunması mədəniyyət şöbəsinin qarşısında duran ümdə məsələlərdən biridir. Rayonda bu dili yad ünsürlərdən qorumaq üçün izahat işləri aparılır, söhbətlər və yığıncaqlar keçirilir. Artıq bütün idarələrdə kargüzarlıq işləri latınca aparılır.

Saatlı rayonunda qadınlara qayğı mədəniyyət şöbəsinin diqqət mərkəzində saxlanılır. Burada elə bir dövlət idarəsi yoxdur ki, orada qadın çalışmasın. Çox sevindirici haldır ki, Saatlı Rayon Mədəniyyət Şöbəsində işləyənlərin əksəriyyəti gənclərdir. Hər il fevralın 2-də "Gənclər günü" müxtəlif tədbirlər vasitəsilə qeyd olunur. Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsində kitabxanaların rolu böyükdür. Belə ki, bu məqsədlə kitabxanalarda vaxtaşırı müxtəlif tədbirlər həyata keçirilir. Gənclər kitabxanasında "Biz sizdən öyrəndik qəhrəmanlığı", "Vətən bizi çağırır", "Vətən mənə oğul desə nə dərdim" başlığı altında fotomontaj hazırlanmışdır.

Mərkəzləşdirilmiş kitabxana sisteminin fondunda hazırda 373334 nüsxə kitab vardır. Mərkəzi rayon kitabxanasının fondunda 47 min nüsxə, uşaq kitabxanasında 14 mindən artıq, şəhər kitabxanalarında 17 min nüsxə kitab vardır. Qalan ədəbiyyatlar isə kənd kitabxanalarının fondunda cəmləşmişdir. Sistem üzrə oxucuların sayı 32765 nəfərdir.

Rəsm qalereyasının fondunda 165 ədəd nəqqaşlıq, qrafika, fotoşəkil, təsviri incəsənət əsərləri və qiymətli sənədlər vardır.

Tarix-diyarşünaslıq muzeyinin 7000-dən artıq fondu vardır. Muzeyin işçiləri fondu zənginləşdirmək üçün yerlərə gedir, rayonun tarixi və mədəniyyəti ilə bağlı qədim eksponatlar toplayırlar.

Saatlı rayonunda son dövrlərdə aparılan quruculuq işləri nəticəsində "Muğan parkı", "Heydər parkı", "Fəvvarələr parkı" tikilib rayon əhalisinin isti-fadəsinə verilmişdir.

Mədəniyyət şöbəsinin nailiyyətləri çoxdur. Bütün bunlar Saatlı Rayon Mədəniyyət Şöbəsinin müdiri A.İslamovun işi düzgün qurmaq qabiliyyətindən xəbər verir.

**Mədəniyyət şöbəsinin görülmüş işlərlə yanaşı xeyli problemləri də vardır. İnanırıq ki, bu problemlər də öz həllini tapacaqdır.**

**Şəhla ƏKBƏROVA**